"Təsdiq edilmişdir"
"Bakı Fond Birjası" QSC-nin İdarə Heyəti
Əmr № 58
26 may 2023-cü il
İdarə Heyətinin sədri v.m.i.e.

_______________ E. Abdullayev

# REPO BAZARINDA BAĞLANILAN ƏQDLƏR ÜZRƏ İNDEKSLƏRİN HESABLANMASI VƏ AÇIQLANMASI

# Q A Y D A L A R I

**Bakı - 2023**

**MÜNDƏRİCAT**

Ümumi müddəalar........................................................................................................ 3

İndekslərin hesablanması ........................................................................................... 3

İndekslərin açıqlanması .............................................................................................. 4

İndekslərin Hesablanmasına Nəzarət Komissiyası ...................................................... 4

Yekun müddəalar ........................................................................................................ 5

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa, maliyyə bazarlarını tənzimləyən hüquqi aktlara və "Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra - Birja) nizamnaməsinə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar bazar iştirakçıları arasında milli valyutada (manat) faiz dərəcələrində istinad rolunu oynaması üçün Birjanın ticarət platformasında bağlanılmış repo əqdləri üzrə Birja tərəfindən indekslərin hesablanması qaydasını müəyyən edir.

## 2. İndekslərin hesablanması

2.1. İndekslərin hesablanması üçün tələb olunan məlumatların yığılması və İndekslərin hesablanması Birja tərəfindən həyata keçirilir.

2.2. Birja tərəfindən hər iş gününün sonuncu ticarət sessiyası bitdikdən sonra Qaydaların 2.4.2-ci yarımbəndində qeyd olunmuş müddətlərdə bağlanılmış repo əməliyyatları üzrə **AINA**[1] indeksləri (ümumilikdə İndekslər) hesablanır.

2.3. AINA indeksinin 2 növü hesablanır: Banklararası əqdlər əsasında hesablanmış - $AINA_{IB}$ indeksi və bütün əqdlər əsasında hesablanan $AINA_{AO}$.

2.4. İndekslərin hesablanması üçün Birja tərəfindən aşağıdakı tədbirlər görülür:

2.4.1. Hər iş gününün sonuncu ticarət sessiyası bitdikdən sonra Birjada bağlanılmış repo açılış əqdlərinin siyahısı formalaşdırılır. Siyahıya daxil edilən repo açılış əqdləri aşağıdakı tələblərə cavab verməlidir:

2.4.1.1. İndekslərin hesablandığı gün Birjanın ticarət sessiyaları ərzində bağlanılmalıdır;

2.4.1.2. repo predmeti Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən buraxılan dövlət istiqrazları və Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılan notlar olmalıdır.

2.4.2. müddəti 1-3 gün arası olan indekslər 1D $AINA_{IB}$ və ya 1D $AINA_{AO}$, müddəti 6-8 gün olan indekslər 1W $AINA_{IB}$ və ya 1W $AINA_{AO}$, müddəti 13-15 gün olan indekslər 2W $AINA_{IB}$ və ya 2W $AINA_{AO}$ müddəti 29-32 gün olan indekslər 1M $AINA_{IB}$ və ya 1M $AINA_{AO}$ adlanır.

2.4.3. İndekslər aşağıdakı düstur əsasında hesablanır:

$$Index_d = \frac{\sum_{i=1}^{n}(m_i * v_i)}{\sum_{i=1}^{n} m_i}$$

*Burada:*

*$Index_d$ - Birja tərəfindən hesablanan İndekslər,*

[1] İngilis dilində "**A**zn **IN**dex **A**verage"

*$m_i$ - manatla bağlanılmış repo açılış əqdinin nominal məbləği,*

*$v_i$ - repo faiz dərəcəsi (faizlə),*

*n - ticarət günündə bağlanılmış və bu Qaydaların 2.4.1-ci yarımbəndində qeyd olunan tələblərə cavab verən repo açılış əqlərinin sayı.*

## 3. İndekslərin açıqlanması

3.1. İndekslər haqqında məlumatlar ən gec müvafiq əməliyyatların aparıldığı günün növbəti iş günü saat 10.00-dək Birjanın internet səhifəsində açıqlanır.

3.2. İndekslərlə yanaşı Birjanın internet səhifəsində bu Qaydaların 2.4.1-ci yarımbəndində qeyd olunan tələblərə cavab verən repo açılış əqdlərinin nominal üzrə ümumi məbləği, əqdlərin sayı, minimal və maksimal faiz dərəcəsi də açıqlanır.

3.3. İndekslərin hesablanmasının mümkün olmadığı hallarda bundan öncəki tarixdə hesablanmış indeks həmin günə də şamil edilir. 10 ardıcıl təqvim günündən çox müddətə indekslərin hesablanmasının mümkün olmadığı hallarda öncəki tarixə müəyyən edilmiş indeksin növbəti günə şamil edilməsi dayandırılır.

## 4. İndekslərin Hesablanmasına Nəzarət Komissiyası

4.1. Birjanın tərkibində 1 nəfər Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) və 2 nəfər Birjanın nümayəndəsindən ibarət olmaqla, 3 nəfərlik İndekslərin Hesablanmasına Nəzarət Komissiyası (bundan sonra - Komissiya) yaradılır. Mərkəzi Bank Komissiyada özünün təmsilçisinin əvəzedicisi barədə də Birjanı məlumatlandırır. Mərkəzi Bankın Komissiyada nümayəndəsi hər hansı səbəblə (məzuniyyət, ezamiyyət və s) iş yerində olmadıqda əvəzedici ilə əlaqə saxlanılır.

4.2. Birja tərəfindən hər ticarət gününün sonunda Birjada bağlanılmış repo açılış əqdlərinə dair ümumi məlumatlar elektron poçt vasitəsilə Komissiya üzvlərinə təqdim olunur.

4.3. Komissiya üzvləri bir sıra əməliyyatları, o cümlədən icra olunmamış, bağlanıldığı zaman texniki səhvlərə yol verilmiş, kəskin dəyişkənlik göstərən (məsələn, AMB-nin faiz dəhlizinin dəyişmədiyi dövrlərdə sonuncu hesablanmış AINA indekslərinin göstəricisinə nəzərən 50%-dən çox fərqlənmə), faiz dərəcəsi müvafiq maliyyə alətinin bazar şərtlərinə açıq şəkildə uyğun gəlməyən əməliyyatların məlumatların təqdim olunduğu gün ərzində indeksin hesablanması üçün tərtib olunan siyahıdan çıxarılması və indeksin yenidən hesablanması təşəbbüsü ilə elektron poçt vasitəsilə çıxış etmək hüququna malikdir.

4.4. Komissiya üzvlərindən birinin təşəbbüsü ilə bu Qaydaların 4.3-cü bəndində göstərilən hallarla bağlı qərar qəbul etdikdə bu qərar protokollaşdırılır və qərarın səbəbləri protokolda göstərilir. Bu hallarda qaldırılan məsələlərə dair qərar bir iş günü ərzində Komissiya üzvlərinin

sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir Komissiya üzvü bir səs hüququna malikdir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda Komissiya sədrinin səsi həlledici sayılır.

4.5. Komissiya hansısa əqdin (və ya əqdlərin) siyahıdan çıxarılması ilə bağlı qərar verdikdə Birja həmin qərarın qəbul olunduğu gün ərzində indeksi internet səhifəsində yeniləyir.

4.6. Zərurət olduqda, Komissiya İndekslərin hesablanması metodologiyasına dəyişikliklərlə bağlı təkliflər verə bilər.

**5. Yekun müddəalar**

5.1. Bu Qaydalar təsdiq olunduğu gündən qüvvəyə minir.

5.2. Bu Qaydalar Birjanın internet səhifəsində açıqlanır.

5.3. Bu Qaydalara edilmiş dəyişikliklər 5 (beş) iş günündən tez olmayaraq qüvvəyə minir.